Ən çox oxunan qəzet
№ 47 (4742), 2018-ci il
Qiyməti 30 qəpik
# ŞƏRQ
Müstəqil İctimai-siyasi qəzet
Qəzet 1996-cı il noyabrın 1-dən çıxır
www.sherg.az
13 mart (çərşənbə axşamı)

## Azərbaycandan Həcc ziyarətinə getmək istəyənlərin sayı 500-ə çatıb



**Bu il Azərbaycandan Həcc ziyarətinə getmək üçün indiyədək 500 insan müraciət edib. Bu barədə Trend-ə Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) xəbər verilib.** Bildirilib ki, müraciətlərin qəbul olunması davam edir və hazırda 500 insan Həcc ziyarətinə getmək üçün müraciət edib.

(Səh.12)

## Ermənistanda faşizm təbliğ olunur

Ölkə xaricindəki ermənilər Qaregin Njdenin və Hayk Asatryanın qəhrəman kimi təqdim olunmasına qarşı çıxırlar

**Müxtəlif ölkələrdə yaşayan ermənilər Ermənistanın ictimai-siyasi həyatında faşizmin təbliğ olunmasından ciddi narahatdırlar.** Ermənistanın "Armeniareport" saytı xəbər verir ki, Yerevanın mərkəzində Qaregin Njdenin abidəsinin ucaldılması erməni ictimaiyyətinin narahatlığına gətirib çıxarıb.

(Səh.8)





## Prezident Gürcüstanın baş nazirini qəbul edib

Giorgi Kvirikaşvili: "Gürcüstan hər zaman Azərbaycanın mövqeyini dəstəkləyir"

**"Gürcüstan və Azərbaycan arasında ticarət dövriyyəsi ilbəil artır və Azərbaycan Gürcüstana investisiya yatıran ölkələr arasında birinci yerdədir".**

Bunu Azərbaycan prezidenti İlham Əliyev Gürcüstan baş naziri Giorgi Kvirikaşvili ilə təkbətək görüşdə deyib. İ. Əliyev Gürcüstan hökumət başçısının Azərbaycana səfərinin əhəmiyyətini və ikitərəfli münasibətlərin yüksək səviyyədə inkişaf etdiyini qeyd edib...

(Səh.2)

## MSK sədri daha iki prezidentliyə namizədə vəsiqə verib



Azərbaycan Respublikası prezidentliyinə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Zahid Oruca və namizədliyi Azərbaycan Sosial Demokrat Partiyası tərəfindən irəli sürülmüş Araz Əlizadəyə martın 12-də prezidentliyə namizədlik vəsiqələri təqdim olunub.

(Səh.6)

# Azərbaycan ABŞ-a nota verdi




## Səfir Robert Sekuta XİN-nə çağırılıb

"Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin "prezidenti" kimi özünü təqdim edən Bako Saakyanın ABŞ-a səfəri və ABŞ Konqresinin inzibati binasında qondarma rejimi təbliğ edən tədbir keçirməsi ilə əlaqədar ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta XİN-nə çağırılıb, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin ABŞ Dövlət Departamentinə ünvanlandığı etiraz notası ona təqdim edilib.

(Səh.2)

Günün içindən ● Günün içindən | Günün içindən ● Günün içindən



## "İstənilən an hərbi gücümüzü işə sala bilərik"

Elxan Şahinoğlu: "Ermənistan üçün ən qorxulu yol savaşdır"

Martın 12-dən müdafiə naziri Zakir Həsənovun rəhbərliyi altında müxtəlif qoşun növləri və hərbi birləşmələrin iştirakı ilə genişmiqyaslı təlimlər başlayıb.

(Səh.6)

## Məktəbli qızların 1200 abort statistikası həyəcan yaratdı

Kamran Əsədovun açıqladığı rəqəmləri Səhiyyə Nazirliyinin səlahiyyətliləri təkzib edir



(Səh.9)